UOT: 334.012.62/64
JEL: M 00

SEYİDOV M. M.
"Xəzər" Universitetinin doktorantı

KİÇİK VƏ ORTA MÜƏSSİSƏLƏRİNDƏ MALİYYƏ RESURSLARININ İSTİFADƏSİNİN HÜQUQİ BAZASI

Xülasə

Tədqiqatın məqsədi – kiçik və orta müəssisələrin maliyyə resurslarının istifadəsinin hüquqi bazasının tədqiqi.

Tədqiqatın metodologiyası –sistemli yanaşma, qruplaşdırma və müqayisəli təhlil üsulları.

Tədqiqatın nəticələri– tədqiqat zamanı kiçik və orta müəssisələrin maliyyə resurslarının istifadəsinin hüquqi bazasının müasir vəziyyəti öyrənilib.

Açar sözlər: kiçik və orta müəssisələr, hüquqi baza, Beynəlxalq Maliyyə Hesabatları Standartları, mühasibat, maliyyə resursları.

GİRİŞ

Dünya praktikası bir daha sübut edir ki, bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə kiçik sahibkarlıq xalq təsərrüfatının inkişafına, sosial problemlərin həllinə və məşğulluq göstəricilərinin yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bəzi ölkələrdə işçilərinin sayı, istehsal edilən və reallaşdırılan əmtəələrin və göstərilən xidmətlərin həcminə görə kiçik sahibkarlıq müəssisə və institutları aparıcı yerləri tutur.

Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində qəbul edilən qanunvericilik və normativ aktlarda göstərilir ki, ölkədə kiçik sahibkarlığın inkişaf etdirilməsi iqtisadi islahatların həyata keçirilməsində aparıcı istiqamətlərdəndir, rəqabətin inkişafına, istehlak bazarında əmtəə və xidmətlər bolluğunun yaranmasına, yeni iş yerlərinin yaranmasına, geniş mülkiyyətçi və sahibkar təbəqəsinin yaranmasına səbəb olur.

Bu gün kiçik və orta sahibkarlıq subyektləri beynalxalq maliyyə standartlarından istifadə etmir.Bu isə həmin müəssisələrin dünya bazarlarına çıxışını əngəlliyir.Məhz hesabat formaların uyğun olmadığına görə bəzən hətta müəyyən maliyyə itkiləri baş verir.Odur ki , kiçik və orta müəssisələrin maliyyə resursların uçotu zamanı və onların səmərəli istifadəsi baxımından həmin müəssisələrdə tezliklə Beynalxalq Maliyyə Standartların tətbiqini stimullaşdırmaq lazımdır.Bu baxımdan seçdiyimiz tədqiqat mövzumusu aktual saymaq olar.

Bütün yuxarıda qeyd olunanlar, kiçik və orta müəssisələrin maliyyə baxımından səmərəli fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsini tələb edir.Həmin qanunvericiliyinin əsas ünsürlərindən biri məhz kiçik və orta müəssisələrin maliyyə vəziyyətini və resurslarını daha səmərəli idarə etməsini təmin edən qanun və qanunverici aktlar təşkil edir.

Azərbaycanda maliyyə resurslarının istifadəsinin hüquqi bazasının müasir vəziyyəti

Azərbaycanda müəssisələrin kiçik müəssisə kateqoriyasına aid edilməsi prinsipləri bəzi əlavələrlə müstəqillik illəri qanunvericiliyində də saxlanılmışdı.

Azərbaycan Respublikasının "Kiçik sahibkarlığa dövlət dəstəyi haqqında Qanunun" (23 noyabr 2001-ci il tarixli 219-IIQD nömrəli qanunu) 2-ci maddəsində kiçik sahibkarlıq müəssisələri işçilərin siyahısındakı orta kəmiyyətə (mövsümü işçilər nəzərə alınmırdı) və illik dövriyyəyə əsasən müəyyən olunurdu.

Azərbaycan Respublikasının "Kiçik sahibkarlığa dövlət dəstəyi haqqında Qanunda" kiçik sahibkarlıq subyektlərinə hüquqi şəxs yaratmadan da sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər aid edilirdilər.

Yuxarıda sözügedən qanunun 5-ci maddəsinə əsasən hüquqi şəxs yaratmadan da sahibraklıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin vergi ödəyicisi kimi vergilər orqanında qeydiyyata alınması Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən tənzimlənilirdi.

Azərbaycan Respublikasının Dövlət Konstitusiyasının 43-cü maddəsinə əsasən hüquqi

şəxslər kommersiya və qeyri kommersiya təşkilatlarına bölünür.

Kommersiya təşkilatları əsas məqsədlərinin mənfəətin əldə edilməsi olan təşkilatlar, qeyri kommersiya təşkilatları isə əsas məqsədlərinin mənfəətin əldə edilməsi və mənfəətin iştirakçı üzvləri arasında bölüşdürülməsi olmayan təşkilatlar hesab olunur. Ancaq qeyri kommersiya təşkilatları təsis edildikləri məqsədlərə uyğun olaraq müəyyən sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər.

Fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların hüquqları hüquqi şəxs yaratmadan da mülki qanunvericiliyə uyğun olaraq xeyli genişləndirilmişdir. Azərbaycan Respublikasının Dövlət Konstitusiyasında müəyyən edilmiş qaydalar üzrə kommersiya təşkilati kimi təsbit olunmuş hüquqi şəxslərin, həmçinin qanunvericiliyə və digər hüquqi sənədlərə zidd olmayan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin fərdi sahibkarlıq fəaliyyəti tənzimlənir. Bütün bunlar isə o, deməkdir ki fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin kommersiya təşkilatları ilə eyni hüququ və öhdəlikləri vardır.

Nümunə üçün qeyd etmək olar ki, o, onun mülki-hüquqi xarakterli müqavilələr əsasında işçiləri işə qəbul etmək hüququ (podrat müqaviləsi, komissiya və s.), qanunla qadağan edilməyən bütün fəaliyyət növləri ilə məşğul olmaq, müvafiq lisenziyaların alınması hüququ vardır.

Yuxarıda da deyildiyi kimi, belə bir vəziyyət Azərbaycan Respublikasının "Kiçik sahibkarlığa dövlət dəstəyi haqqında" qanuna uyğundur, kiçik sahibkarlıq subyektləri qanunvericilikdə nəzərdə tutulmuş bütün maliyyə dəstəyi və imtiyazlarından istifadə edə bilərlər.

Dünya və ölkə praktikası göstərir ki, onun xarakterik xüsusiyyətləri də nəzərə alınmaqla kiçik və orta sahibkarlığa dövlət və yerli idarəetmə orqanları tərəfindən daima diqqət yetirilməli və dəstəklənməlidir. Hər şeydən öncə qeyd etmək lazımdır ki, kiçik sahibkarlığın geniş hüquqi mühitdə fəaliyyət sferası formalaşdırılmalıdır. Proses sahibkarlıq fəaliyyətini, həmçinin sahibkarlıq fəaliyyəti ilə məşğul olan qeyri-kommersiya təşkilatlarının fəaliyyətini tənzimləyən qanunvericilik və normativ aktlarının qəbul edilməsi ilə başlamışdır. Eyni zamanda kiçik sahibkarlıq infrastrukturunun yaradılması və sahibkarlıq təşkilatlarının assosiasiyalarda (ittifaqlarda) birləşməsi prosesi başlamışdır.

Kiçik sahibkarlığın dəstəklənməsi prosesində maliyyə-kredit dəstəyi, vergi güzəştlərinin tətbiqi və digər aktual problemlərin həlli xüsusi yer tutur və həmin tədbirlər ümumiyyətlə kiçik sahibkarlığın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

Kiçik və orta sahibkarlığın maliyyə münasibətlərinin hüquqi mühitinin formalaşdırılması mühüm və vacib şərt kimi, kiçik sahibkarlıq subyektlərinə iqtisadi azadlıq, qanuni biznes fəaliyyəti ilə məşğul olmaq hüququ və təminatı verir. Deyilənlərlə yanaşı, qanunvericilik və normativ aktlarda kiçik sahibkarlıq subyektlərinin təsərrüfat subyektləri, tərəfdaşlar, istehlakçılar (alıcı), müxtəlif səviyyədə büdcələr qarşısındakı öhdəliklərinin vaxtında və tam olaraq yerinə yetirmələri öhdəlik və məsuliyyətləri müəyyən olunur.

Hüquqi mühitin formalaşdırılması sahibkarlıq subyektlərinin qeydiyyata alınması vaxtından başlayaraq kiçik sahibkarlıq qarşısında duran bir çox problemlərin həll edilməsinə imkan yaradır. Burada sahibkarlıq fəaliyyəti predmetinin lisenziyalaşdırılmasından başlamış, müflisləşmə prosedurları və fəaliyyətlərinin dayandırılması qaydaları təsbit olunur. Kiçik sahibkarlıq fəaliyyətinin daha da inkişaf etməsinə ciddi əngəllər içərisində qeyd olunmalıdır ki, qanunvericilik aktları birbaşa təsir göstərən aktlar deyildir, onların icraedici orqanlar tərəfindən reallaşdırılması üçün çox saylı təlimatlar, əmrlər, məktub və göstərişlər hazırlanır. Qeyd edilən təlimat və göstərişlərdə müəyyən vaxt keçdikdən sonra dəyişiklik və dəqiqləşdirmələr aparılır. Bu səbəbdən də sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlar faktiki olaraq həmin təlimat və göstərişlərdən yararlana bilmirlər, fəaliyyətlərinə tətbiq edə bilmirlər.

Bu istiqamətdə ilk addım kimi 1992-ci ilin dekabrında qəbul edilmiş Azərbaycan Respublikasının "Sahibkarlıq fəaliyyəti haqqında Qanunu" (№ 405 15 dekabr 1992-ci il tarixli qanun) qeyd oluna bilər. Qanunda ilk dəfə olaraq Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin əsas prinsipləri, sahibkarlıq fəaliy-

yəti subyektlərinin hüquq və öhdəlikləri, dövlət müdafiəsi və dəstəyinin forma və metodları, sahibkarların dövlət orqanları ilə qarşılıqlı münasibətlərinin tənzimlənməsi qaydaları öz əksini tapmışdır.

Azərbaycan Respublikasında kiçik sahibkarlığın inkişafına 1999-cu ildə iyunun 4-də qəbul olunmuş və həmin gündən qüvvədə olan "Kiçik sahibkarlığa dövlət dəstəyi haqqında Qanun" çox böyük təsir göstərmişdir. Həmin qanunda sahibkarların hüquq və vəzifələri dəqiq ifadə olunmuş, dövlət hakimiyyəti orqanları tərəfindən sahibkarların hüquqlarının qorunmasına təminat verilmişdir.

1999-cu ildə sentyabrın 1-də qüvvədə olan Azərbaycan Respublikasının Dövlət Konstitusiyasını eyni zamanda respublikanın iqtisadi konstitusiyası da adlandırmaq olar. Dövlət Konstitusiyasında vətəndaşların hüquq və azadlıqları təsbit olunur, insanlar arasında münasibətlər və o cümlədən maliyyə, sahibkarlıq fəaliyyəti ilə bağlı münasibətlər tənzimlənir, sahibkarlıq fəaliyyətinin təşkilati-hüquqi formaları nizamlanır. Respublikada kiçik sahibkarlığın dəstəklənməsi mexanizminin əsas elementləri Azərbaycan Respublikasında "Kiçik sahibkarlığa dövlət dəstəyi haqqında Qanunda" öz əksini tapmışdır. Adı çəkilən normativ aktda kiçik sahibkarlığın inkişafına xidmət edən və aktual məzmun daşıyan mühüm müddəalar öz əks olunmuşdur. Nazirlər Kabinetinin müntəzəm olaraq Sahibkarlıqa Kömək Milli Fonduna dair hər il qəbul etdiyi qərarında "Vəsaitlərin bölüşdürülməsi haqqında" maddəsinə əsasən "Kiçik sahibkarlığa investisiya yardımı"-nın da mühüm əhəmiyyəti vardır. Sərəncamda kiçik sahibkarlığın dəstəklənməsinə xidmət edən təxirəsalınmaz tədbirlər kompleksi öz əksini tapmış, bu aktual vəzifənin həlli ilə bağlı dövlət orqanlarının vəzifələri müəyyən edilmişdir.

Kiçik sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin hüquqi bazası və maliyyə dəstəyinin göstərilməsi qaydalarının təsbit edilməsi yuxarıda göstərilən qanunvericilik və normativ aktların qəbul edilməsi ilə bitmir. Kiçik sahibkarlıq fəaliyyətinin tənzimlənməsində vergi qanunvericiliyi xüsusi rol oynayır.

Hal-hazırda Azərbaycanda ƏDV-nin vahid dərəcəsi 18% həcmində müəyyən olunmuşdur. Vergi islahatlarının həyata keçirilməsinin əsas istiqamətlərindən biri vergi yükünün azıldılmasının nəzərdə tutulmasıdır. Burada ilk növbədə söhbət kiçik və orta sahibkarlardan gedir [1].

Son illərdə hökumət qeyd edilən istiqamətdə xeyli məqsədyönlü tədbirlər həyata keçirmişdir. Həmin tədbirlər qismində 2015-ci ildə noyabr ayında sahibkarlıq fəaliyyəti növləri üzrə iki il müddətində bütün növ yoxlamaların ləğv edilməsi göstərilə bilər. Burada istisnalıq Baş Prokurorluqda korrupsiya ilə mübarizə Baş idarəsinin insan həyatı və sağlamlığına təhlükə, dövlət təhlükəsizliyi və iqtisadi maraqlara təhlükə ilə bağlı yoxlamaları təşkil edir.

Kiçik sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin dəstəklənməsi və tənzimlənməsi ilə bağlı inkişaf etmiş infrastrukturun yaradılmasının hesab edirik ki, çox böyük əhəmiyyəti vardır və belə bir gerçəklik inkişaf etmiş dövlətlərin təcrübəsində də öz təsdiqini tapır.

Nümunə üçün, 1953-cü ildə ABŞ-da kiçik biznes işləri üzrə Administrasiyanın yaradılması göstərilə bilər. Administrasiyanın funksiyaları kiçik biznesin dəstəklənməsi ilə bağlı tədbirlər kompleksini əhatə edirdi (maliyyə yardımı, texniki və məsləhət xidmətləri, dövlət sifarişlərinin alınmasına köməyin göstərilməsi və s.).

Baxmayaraq ki, bizim ölkəmizdə islahatların həyata keçirilməsi və sahibkarlıq fəaliyyətinin inkişaf etməsi çox az bir dövrü əhatə edir, bununla belə dövlət tərəfindən sahibkarlıq institutları və sahibkarlıq fəaliyyətini dəstəkləyən müəyyən infrastruktur formalaşmış və inkişaf etmişdir. İlk növbədə, bu infrasturkturun bacib ünsürü kimi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətini dəstəklənməsi üçün nəzərdə tutulan Sahibkarlığa Kömək Milli Fondun yaradılması göstərilə bilər. Həmin Fond Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin nəzdində dövlət təşkilatı, hüquqi şəxs kimi fəaliyyət göstərir. Fondun məqsədi Azərbaycan Respublikasında sahibkarlığın inkişaf etdirilməsi tədbirlərində iştirak etmək, əhalinin işgüzar fəallığının gücləndirilməsi, onlara maliyyə yardımının göstərilməsidir. Azərbaycan Respublikasında dövlətin sahibkarlıq fəaliyyətinin maliyyə dəstəklənilməsi siyasəti həyata ke-

çirilir. Sahibkarlığa Kömək Milli Fondun Əsasnaməsində Azərbaycan Respublikasında sahibkarlığın dəstəklənilməsi məqsədləri və əsas istiqamətləri, Fondun mülkiyyətinin formalaşması mənbələri və Fondun idarə olunması və s. öz əksini tapmışdır.

Deyilənlərlə yanaşı, dövlət səviyyəsində kiçik və orta sahibkarlığın inkişafi və maliyyə dəstəyi problemlərin həlli ilə bağlı müvafiq funksiyalar nazirlik və idarələrə həvalə olunmuşdur: İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi və s.

Kiçik sahibkarlığın infrastrukturuna lizinq şirkətləri və firmalar, texnoparklar, biznes inkubatorlar, istehsal-texnoloji mərkəzlər, tədris mərkəzləri, sığorta şirkətləri, kredit və digər təşkilatlar daxildir. Həmin təşkilat və müəssisələr kiçik sahibkarlıq subyektlərinə müxtəlif formada dəstək verirlər [2,3].

İndiki dövrdə Azərbaycan Respublikasında milli qanunvericiliyə uyğun olaraq kiçik və orta sahibkarlığa maliyyə-kredit dəstəyinin göstərilməsi Sahibkarlığa Kömək Milli Fondu tərəfindən həyata keçirilir.

Fond tərəfindən sahibkarlığın dövlət tərəfindən dəstəklənməsi tədbirlərinin maliyyə təminatı hər il bütün səviyyələrdə büdcə vəsaitləri hesabına, dövlət və bələdiyyə mülkiyyətinin özəlləşdirilməsindən daxil olan vəsaitlər hesabına, həmçinin fondun öz vəsaitləri, fiziki və hüquqi şəxslərin üzvlük haqları, imtiyazlı kreditlərdən gələn faizlərdən formalaşan vəsaitlər hesabına həyata keçirilir. Bu vəsaitlər müsabiqə yolu ilə kiçik sahibkarlıq subyektlərinə verilmək üçün ayrılır.

Hal-hazırda Azərbaycanda kiçik və orta biznesin maliyyə resurslarından istifadə etməsi qaydalarının normativ-hüquqi bazası Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 2009-cu il 13 yanvar sərəncamı ilə kiçik və orta sahibkarlıq subyektlərinin sadələşdirilmiş uçotu qaydası ilə [4], həmçinin kommersiya təşkilatları üçün milli mühasibat uçotu standartları ilə tənzimlənir. Bu standartlar Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında Qanunda" öz əksini tapmışdır.

2004-cü ildə iyunun 29-da qəbul edilmiş mühasibat uçotu haqqında yeni qanun Azərbaycanda milli mühasibat uçotu sistemində fəal islahatlar dövrünün başlanmasından xəbər verir.

Qanun 2004-cü ildə avqustun 9-da dərc edildi, 2005-ci ildə fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti "Mühasibat uçotu qanununun tətbiqi haqqında" Fərmanı imzaladı. Fərmanda mühasibat uçotu sahəsində ayrı-ayrı icraedici orqanların və digər dövlət strukturlarının mühasibat uçotu sahəsindəki məsuliyyətləri tam olaraq müəyyən olundu. Qəbul edilmiş qanun maliyyə məsuliyyəti sahəsində şəffaflığın təmin olunmasının, həmçinin beynəlxalq standartlara uyğun Azərbaycan Respublikasında mühasibat uçotunun dövlət tənzimlənməsinin məqsədlərini bəyan edirdi. Bu məqsədə kommersiya təşkilatları üçün Beynəlxalq Maliyyə Hesabatları Standartlarının əsasında hazırlanmış və tətbiq edilmiş normaların, kommersiya təşkilatları üçün nəzərdə tutulmuş milli mühasibat uçotu standartları ilə uzlaşdırılması ilə nail olunur. Eyni zamanda qeyri kommersiya təşkilatları üçün İctimai Sektorun Beynəlxalq Maliyyə Hesabatları Standartlarının milli mühasibat uçotu standartlarının uzlaşdırılması ilə nail olunur.

Qeyd etmək lazımdır ki, Qanunda Beynəlxalq maliyyə hesabatları standartlarına uyğun göstərilmiş anlayışlar da "mühasibat uçotunun standartları, maliyyə hesabatlarının standartları, Daimi komitənin şərhləri, mühasibat uçotu Beynəlxalq Şurası tərəfindən işlənilib hazırlanmış və qəbul edilmiş mühasibat uçotu standartları, həmçinin Maliyyə hesabatları üzrə Beynəlxalq Komitənin şərhlərinə əsasən formalaşır. İctimai Sektorun Beynəlxalq Maliyyə Hesabatları Standartları adı altında –Beynəlxalq mühasibatlar federasiyasının ictimai sektor üzrə Komitəsinin işləyib hazırladığı və qəbul etdiyi mühasibat uçotu standartları başa düşülür.

Beləliklə, Azərbaycanda çox aşkar formada Beynəlxalq Maliyyə Hesabatları Standartları və İctimai Sektorun Beynəlxalq Maliyyə Hesabatları Standartlarına keçidin başlıca məqsəd olması bəyan edildi. Burada hesabat verən subyektlərin milli standartlarla Beynəlxalq Maliyyə Hesabatları Standartları və İctimai Sektorun Beynəlxalq Maliyyə Hesabatları Standartları ilə ahəngdar bir formada hesabatlar hazırlanması təsbit olunurdu.

Azərbaycan Respublikasının "Mühasbiat uçotu haqqında Qanuna" (29 iyun 2004-cü il) əsasən mühasibat uçotu sahəsində dövlət tənzimlənməsi Azərbaycan Respublikasının müvafiq icraedici orqanları tərəfindən tənzimlənir.

Hal-hazırda Maliyyə Nazirliyi belə bir orqan kimi çıxış edir [5]:

- Mühasibat uçotu üzrə standartların Beynəlxalq Şurası və Mühasibatçıların Beynəlxalq Federasiyasının hazırladıqları sənədlərinin, həmçinin Beynəlxalq Maliyyə Hesabatları Standartları və İctimai Sektorun Beynəlxalq Maliyyə Hesabatları Standartlarının azərbaycan dilinə tərcümə edilməsini təşkil edir, tərcümə edilmiş mətnləri rəsmi mətn kimi təsdiqləyir;
- Milli mühasibat uçotu standartları, həmçinin milli mühasibat uçotu standartları ilə bağlı şərhlər və tövsiyələri, mühasibat uçotu qaydaları hazırlanır və təsdiqlənir;
- Müvafiq icraedici orqanlara, qeyri dövlət büdcə fondlarına onlara hüquqi normativ aktlarda təsbit olunmuş səlahiyyətlərin yerinə yetirilməsi ilə əlaqədar tövsiyələr verir, deyilənlərlə yanaşı mühasibat uçotu sferasında tövsiyə xarakterli sənədlər hazırlayır;
- Mühasibat uçotu üzrə Beynəlxalq maliyyə standartları Şurası ilə, Mühasibatçıların İctimai Sektor üzrə Komitəsinin Beynəlxalq Federasiyasının hesabat standartlarındakı dəyişikliklərlə bağlı monitorinqi, həmçinin bu dəyişikliklərin milli mühasibat uçotu standartlarında vaxtında əks olunmasını təşkil edir;
- Kiçik sahibkarlıq subyektlərinin sadələşdirilmiş mühasibat uçotu qaydalarını hazırlayır və təsdiqləyir;
- Milli mühasibat uçotu sisteminin təkmilləşdirilməsi üçün peşəkar mühasibat uçotu təşkilatları ilə əməkdaşlıq edir.

Qanunla mühasibat uçotu sferasına dair digər icraedici orqanlar və qeyri büdcə dövlət fondları üçün onların səlahiyyətləri çərçivəsində tövsiyə xarakterli normativ-hüquqi aktların qəbul edilməsinə icazə verilir. Ancaq Maliyyə Nazirliyinin Azərbaycan Respublikasında mühasibat uçotu sahəsində əsas tənzimləyici rolu Azərbaycan Respublikasının Prezidentinin "Mühasibat uçotu Qanununun tətbiqi haqqında" (2005-ci il 7 fevral tarixli 192 nömrəli) Fərmanında öz əksini tapmışdır.

"Mühasibat uçotu haqqında" qanunun 1.2. bəndində bu sənədlərin təsdiqlənmədən öncə mütləq Maliyyə Nazirliyi ilə razılaşdırılması öhdəliyi bilavasitə təsbit olunmuşdur. Belə bir razılaşma olmadıqda onların tətbiqinə icazə verilmir.

"Mühasibat uçotu Qanunu" –da xüsusi olaraq qeyd olunur ki, "mühasibat uçotu qaydaları, həmçinin forması, məzmunu və kredit təşkilatlarının mütəmadi olaraq hesabatlar verməsi qaydaları və vaxtı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Maliyyə Nazirliyi ilə razılaşdırılaraq müəyyən edilir . "Mühasibat uçotu haqqında" Qanunun (2004) yeniliklərindən biri də Mühasibat Uçotu üzrə Məşvərət Şurasının yaradılması tələbinin təmin edilməsi olmuşdur. Mühasibat Uçotu üzrə Məşvərət Şurası dövlət orqanlarına mühasibat uçotu üzrə, maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar məsləhətlər verməsi həvalə olunur.

Azərbaycan Respublikasında mühasibat uçotunun tənzimlənməsi səlahiyyətləri həvalə edilən dövlət orqanı Maliyyə Nazirliyidir. Maliyyə Nazirliyi ilə Mühasibat Uçotu üzrə Məşvərət Şurası Beynəlxalq Maliyyə Hesabatları Standartları və İctimai Sektorun Beynəlxalq Maliyyə Hesabatları Standartlarının tətbiqi, milli mühasibat uçotu standartlarının hazırlanması və ölkədə mühasibat uçotunun inkişafı ilə bağlı digər mühüm məsələlərlə bağlı məsləhətləşmə və uzlaşdırıcı proseduralar yerinə yetirirlər.

Mühasibat uçotu üzrə Məsləhət Şurasında Beynəlxalq Maliyyə Hesabatları Standartları və İctimai Sektorun Beynəlxalq Maliyyə Hesabatları Standartları ilə bağlı fundamental bilikləri dövlət hakimiyyəti orqanlarına, kommersiya və qeyri kommersiya təşkilatlarına, mühasibat uçotu ixtisası üzrə mütəxəssislərə və təhsil mərkəzlərinə təqdim edirlər.

Şuranın üzvləri və sədri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən - nizamnaməsi isə Ədliyyə Nazirliyi tərəfindən təsdiqlənir. Lakin eyni zamanda qanunvericilikdə mühasibat uçotunun tənzimlənməsində əsas məsul dövlət orqanı kimi çıxış edən Maliyyə Nazirliyinin nümayəndələrinin Şuranın tərkibinə daxil olması qadağan edilir. Bu qadağa Mühasibat Uçotu üzrə Məşvərət Şurasını əsas dövlət tənzimləyicisindən nisbi müstəqilliyini

təmin edir. Ancaq Mühasibat Uçotu üzrə Məşvərət Şurasının resurslarının məhdudluğu və onun maliyyələşdirmədən asılılığı onun müstəqilliyini əhəmiyyətli dərəcədə məhdudlaşdırır, çünki Maliyyə Nazirliyinin büdcəsindən maliyyələşdirilir.

Lakin eyni zamanda "Mühasibat uçotu haqqında Qanunda" Mühasibat Uçotu üzrə Məşvərət Şurasının fəaliyyətinin digər mənbələrdən, qanunvericilikiklə qadağan edilməyən mənbələrdən maliyyələşdirilməsinə icazə verilir [5]. Belə bir maliyyələşdirmənin çəkisinin artması ilə Məşvərət Şurasının müstəqilliyi daha da artacaqdır. Maliyyə uçotu və hesabatların hazırlanmasında demək olar ki, inqilabi çevriliş kimi xarakterizə edilə biləcək yeniliklərə Beynəlxalq Maliyyə Hesabatları standartlarına keçid, həminin mühasibat uçotu üzrə Məşvərət Şurasının Maliyyə Nazirliyindən asılı olmayan təşkilat kimi təsbit edilməsi, milli mühasibat uçotu standartlarının hazırlanması proseduraları hesab edilə bilər. Belə bir qayda "Mühasibat uçotu haqqında Qanunda" (2004) öz əksini tapmışdır. Bütünlükdə yeni proseduralar mühasibat uçotunun beynəlxalq standartlarına uyğun müəyyən edilmişdir. Prosedurların əsas prinsipləri və mərhələləri "Mühasibat uçotu haqqında Qanunda" təsvir edilmişdir, eyni zamanda dövlət tənzimlənmə orqanını (Maliyyə Nazirliyini) milli mühasibat uçotu standartlarının hazırlanması və qəbul edilməsində məsul tərəflərdən biri kimi təsbit edir [5].

Deyilənlərlə yanaşı qanunda birmənalı olaraq təsbit olunmuşdur:

- Mühasibat Uçotu üzrə Məşvərət Şurasından milli mühasibat uçotunun standartlarının hazırlanması ilə bağlı məsləhətlərin alınması üçün Maliyyə Nazirliyi Şuranın ünvanına standartların hazırlanması ilə bağlı mərhələli plan və planın icrası müddətini göstərən işçi planı göndərir.
- Məşvərət Şurası işlənilib hazırlanan standartla bağlı məsləhətləri iş planında göstərilmiş müddətdə təqdim edir;
- Maliyyə Nazirliyi Mühasibat Uçotu üzrə Məşvərət Şurası Komitəsinin təkliflərini də nəzərə alaraq standartın ilkin layihəsini hazırlayaraq onu Məşvərət Şurasına göndərir və şərhlərin edilməsi üçün dərc olunmasını təşkil edir;
- ilkin layihənin dərc edilməsindən sonra 60 gün ərzində Maliyyə Nazirliyi bütün maraqlı tərəflərin qeyd və iradlarının toplanılmasını təşkil edir.
- 60 gündən sonra Nazirlik alınan bütün irad və qeydləri Məşvərət Şurası Komitəsinə göndərir;
- Mühasibat Uçotu üzrə Məşvərət Şurası Komitəsi 30 gün ərzində Maliyyə nazirliyi tərəfindən təqdim edilən ilkin layihəni təqdim edilən qeydlərlə birlikdə nəzərdən keçirir və onlarla bağlı Maliyyə Nazirliyinə rəsmi qeydlərini göndərir;
- −Maliyyə nazirliyi təkrar ilkin layihəni nəzərdən keçirir, Mühasibat Uçotu üzrə Məşvərət Şurası Komitəsinin və digər maraqlı tərəflərin də qeydlərini nəzərə alır.
- Maliyyə Nazirliyinin əvvəl dərc olunmuş ilkin layihəyə düzəlişlər etmək və yaxud layihəni əvvəlki vəziyyətdə saxlamaq hüququ vardır;
- −Maliyyə Nazirliyi hazırlanmış standartın təqdim edilən variantda təsdiqlənməsi qərarını qəbul edərsə, bu zaman dərc edilmiş ilkin layihənin qüvvədə olduğu vaxt müəyyən edilir;
- Əgər Maliyyə Nazirliyi ilkin layihəyə düzəlişlərin edilməsi qərarını qəbul edərsə standartın layihəsinə ediləcək düzəlişləri hazırlayır, sonra təsdiqləyir və yeni redaksiyada qəbul edilən standartın qüvvədə olacağı vaxtı təyin edir.

NƏTİCƏ

İlkin layihənin dəyişikliklərlə və yaxud dəyişikliklərsiz qəbul edilməsi zamanı Maliyyə Nazirliyi həmin layihənin Beynəlxalq Maliyyə Hesabatları Standartları və İctimai Sektorun Beynəlxalq Maliyyə Hesabatları Standartlarına, həmçinin Mühasibat Uçotu üzrə Məşvərət Şurası Komitəsinin tövsiyələrinə nə qədər uyğun olduğunu müəyyən edir.

Maliyyə Nazirliyi tərəfindən hazlırlanmış standart Beynəlxalq Maliyyə Hesabatları Standartları və İctimai Sektorun Beynəlxalq Maliyyə Hesabatları Standartları, həmçinin Mühasibat Uçotu üzrə Məşvərət Şurası Komitəsinin tövsiyələrindən fərqlənirsə nazirlik mövcud fərqləri göstərir, standartın belə bir fərqlərlə qəbul edilməsi qərarı ilə bağlı şərh və izahatlar verir.

Göstərilən prosedura kommersiya və qeyri kommersiya təşkilatları üçün milli standartlarının hazırlanmasında tətbiq edilir. Onun vasitəsi ilə milli mühasibat uçotu standartlarının hazırlanmasında bütün maraqlı tərəflərin layihənin hazırlanmasının ən erkən mərhələsindən iştirak etməsi imkanı yaradılır, bütün bunlar isə öz növbəsində hazırlanan standartın keyfiyyətinin yüksəldilməsinə, qəbul olunan normativ hüquqi aktlara sonradan ediləcək düzəlişlərin azalmasına şərait yaradır.

Beynalxalq mühasibat uçotu və maliyyə resursların istifadəsi qaydaların respublikamızda inkişafı ilə baqlı, zənnimizcə, aşağıdakı tövsiyyələr qəbul olunsa məqsədəuyğun olardı:

1. BMHS-ın tətbiq olunmasının xarici təcrübənin milli standartlarla müqayisəli təhlilin müntəzəm aparılması;
2. BMHS-na dair yerli sahibkarların beynalxalq sertifikatların alınmasına dövlət dəstəyin sürətlənməsi və genişlənməsi;
3. Auditor və konsaltinq şirkətlərin kiçik və orta müəssisələri ümün təklif etdiyi xidmətlərin qiymətlərin aşağa salınması;
4. BMHS sahəsində xarici mütəxəssislərin müvəqqəti olaraq kiçik və orta müəssisələrə dövlət tərəfindən cəlb olunması;
5. BMSH sahəsinə aid kiçik və orta müəssisələrində xüsusi İKT proqramların yayılmasına dövlət tərəfindən dəstəyin verilməsi.

Beləliklə, kiçik və orta müəssisələrin maliyyə resurslarının istifadəsinin normativ – hüquqi bazasının müasir vəziyyətinin tədqiqi göstərdi ki, bu gün Azərbaycanda kişik və orta sahibkarlığın maliyyə resurslarının istifadəsi səmərəli şəkildə təşkil olunub. Lakin eyni zamanda, Beynalxalq Maliyyə Hesabatları Standartların tətbiq olunmasına, zənnimizcə, daha geniş diqqət ayrılsa daha məqsədəuyğun olardı.

ƏDƏBİYYAT SİYAHISI

1. Novruzov N. H. Maliyyə. Dərslik, Bakı, “Kooperasiya”, 2007.- 464 s.
2. Дзбоева Д.П. Актуальные вопросы развития малых и средних формт предпринимательства // Международный бухгалтерский учет - 2010.- №11(143) сентябрь- с. 15-21
3. Малые и средние предприятия. Управление и организация. / Й.Х.Пихлер, Х.Й. Пляйтнер, К.-Х. Шмидт; Общ. ред. Й.Х. Пихлера и др.; Пер.с нем.И.С. Алексеевой и Г.И. Токаревой. - Москва: Международные отношения,2002. - 279с.
4. http://www.maliyye.gov.az/sites/default/files/Ki%C3%A7ik%20sahibkarl%C3%8Dq%20subyektl%C9%99rind%C9%99%20sad%C9%99l%C9%99%C5%9Fdirilmi%20u%C3%A7otun%20apar%C4%B1lmas%C4%B1%20Qaydalar%C4%B1.pdf
5. http://www.e-qanun.az/framework/5458

Сеидов М. М.
Докторант Университета «Хазар»

Правовая база использования финансовых ресурсов на малых и средних предприятиях

Резюме

Цель исследования – изучение правовой базы использования финансовых ресурсов на малых и средних предприятиях.

Методология исследования – системный подход, группировка, сравнительный анализ.

Результаты исследования – в ходе исследования были получены результаты исследования современного состояния правовой базы использования финансовых ресурсов на малых и средних предприятиях.

Ключевые слова: *малые и средние предприятия, правовая база, Международные Стандарты Финансовых Отчетов, бухгалтерия, финансовые ресурсы.*

Seyidov M. M.
Doctoral candidate of "Hazar" University

Legal base of using of financial resources at small and medium-sized enterprises

Abstract

Purpose - studying of legal base of using of financial resources at small and medium-sized enterprises.

Design/methodology – system approach, group, the comparative analysis.

Findings – during the research have been received results of a research of the current state of legal base of use of financial resources at small and medium-sized enterprises.

Keywords: *small and medium-sized enterprises, legal base, International Standards of Financial Statements, accounts department, financial resources.*